AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 5/3

Bakı şəhəri 11 fevral 2015-ci il

AMEA-nın Rəyasət Heyəti tərəfindən tövsiyə olunan elmi tədqiqat proqramları haqqında

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 09 aprel 2014-cü il tarixli 10/5 nömrəli qərarı ilə elmi tədqiqat proqramlarının seçilməsi və maliyyələşdirilməsi məqsədilə müsabiqə elan edilmişdir. Müsabiqəyə təqdim olunmuş proqramlar Ekspert Komissiyası tərəfindən təhlil edilmişdir. Ekspert Komissiyasının və müvafiq elmi bölmələrin rəyinə əsasən fundamental elmi problemlərin həllinə yönəlmiş elmi tədqiqat proqramları müəyyənləşdirilmişdir. Həmin proqramları müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR**:

1. Bu qərara əlavə olunan siyahıda göstərilən elmi tədqiqat proqramlarının maliyyələşdirilməsi məqsədəuyğun hesab edilsin.
2. Elmi tədqiqat mövzularının rəhbərlərinə tapşırılsın ki, 10 gün müddətində proqramları müəyyən olunmuş formalara uyğun hazırlayıb, institutun elmi şurasının rəyi ilə birlikdə AMEA-nın müvafiq elmi bölmələrinə və AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə təqdim etsinlər.
3. AMEA-nın elmi bölmələrinə tapşırılsın ki, proqramların icrasına müntəzəm nəzarət edilsin.
4. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, proqramların maliyyələşdirilməsi ilə bağlı məsələlər müəyyən olunmuş qaydada həll edilsin.
5. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT